BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Humanitar elmlər seriyası 2010

# RUMINİYA-AZƏRBAYCAN ƏMƏKDAŞLIĞI ÇOXTƏRƏFLİ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ (1992-1999)

**S.Ə.İMANOVA**
***Bakı Dövlət Universiteti***
***Samira _m_@bk.ru***

*Müstəqillik qazandıqdan sonra Azərbaycan Rumıniya ilə çoxtərəfli sahədə əməkdaşlıq edir. 1992-ci ildə Rumıniya və Azərbaycan Qara dəniz İqtisadi Əməkdaşlıq təşkilatına üzv oldu. Azərbaycan regionlarası inteqrasiyaya qoşuldu, bu təşkilatın Parlament Assambleyası ilə əlaqələri yarandı. Azərbaycan Assambleyanın müxtəlif komitələrinin iclaslarında təmsil olundu. Avropa Şurası, BMT çərçivəsində Rumıniya-Azərbaycan əlaqələri mövcuddur. Bu təşkilatlar çərçivəsində Rumıniya Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Bu baxımdan çoxtərəfli sahədə Rumıniya-Azərbaycan əməkdaşlığını öyrənmək mühüm əhəmiyyət kəsb edir.*

QİƏT çərçivəsində Rumıniya ilə Azərbaycan arasında əməkdaşlıq xüsusilə daha genişdir. QİƏ-nin məqsədi ölkələr arasında şəxslərin və kapitalın sərbəst hərəkəti, azad mal dövriyyəsi, xidmət sərbəstliyi, iştirakçı ölkələr arasında vizasız hərəkət rejimi yaratmaqdır (1, 28). 1993-cü ilin iyununda üzv ölkələrin xarici işlər nazirlərinin görüşündə Qara dəniz İqtisadi Əməkdaşlığının nizamnaməsi bəyənildi (15, 629).

1995-ci il iyunun 30-da Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı üzvlərinin dövlət və hökumət başçılarının Buxarestdə keçirilən zirvə toplantısı öz işinə başladı. Albaniya, Ermənistan, Bolqarıstan, Gürcüstan, Yunanıstan, Moldova, Rumıniya, Rusiya, Türkiyə və Ukrayna Qara dəniz regionunda iqtisadi əməkdaşlıq məqsədlərinin yerinə yetirilməsini sürətləndirmək niyyətində olduqlarını bildirdilər. İyunun 30-da zirvə toplantısını açan İon İliyesku öz çıxışında təşkilatın nüfuzunun artırılması ilə əlaqədar bir sıra təkliflər verdi və üzv dövlətlər arasında əməkdaşlığın sıxlaşdırılması haqqında mülahizələrini söylədi. Çıxış edənlər qeyd etdilər ki, bölgədə sülhün və sabitliyin möhkəmləndirilməsinə nail olmaq yolunda ən mühüm əngəl regionda gedən münaqişələrdir. Region dövlətlərinin vahid mövqeyi təcavüzkar separatçılıq hərəkatına sarsıdıcı zərbə endirə bilər (4, 146-148). Natiqlər QİƏT üzvlərinin birgə nəqliyyat və kommunikasiya xətlərinin yaradılması, sərhəd keçidlərinin sadələşdirilməsi, gömrük qaydalarının asanlaşdırılması məsələləri barədə bir sıra təkliflər irəli sürdülər (2).

1996-cı il oktyabrın 25-də Azərbaycan prezidenti Heydər Əliyev QİƏT-ə üzv olan ölkələrin dövlət başçılarının zirvə görüşündə çıxış etdi. Azərbaycan prezidenti dedi ki, iqtisadi əməkdaşlıq üçün başlıca şərt regionda sülh və əmin-amanlığın olmasıdır, separatçılıq meyllərinin aradan qaldırılmasıdır (12, 459-462).

1998- ci il iyunun 5-də Yaltada QİƏT-in iştirakçısı olan ölkələrin IV zirvə görüşü keçirildi. Tədbirdə prezident Heydər Əliyev çıxış edərək QİƏT-in telekommunikasiyalar, nəqliyyat layihələrini yüksək qiymətləndirdi. Prezident Heydər Əliyev elektroenergetika sahəsində əməkdaşlığın ümidverici olduğunu, QİƏT-in üzvü olan ölkələrin elektroenergetika sistemlərini birləşdirmək layihəsini Avropa-Asiya energetika sisteminin işlənib hazırlanmasında mühüm addım hesab etdiyini bildirdi. Rumıniya prezidenti E.Konstantinesku bildirdi ki, Rumıniya dünya bazarlarına enerji ehtiyatları, mal göndərmək üçün yeni infrastrukturun bərqərar olmasında, habelə TRASEKA layihələrində, elektrik enerjisi sistemlərinin birləşdirilməsində və bir sıra digər layihələrdə iştirak etmək istəyir (6, 239-252). 1998-ci ilin iyununda Yaltada keçirilmiş IV zirvə görüşündə QİƏ regional iqtisadi təşkilata-Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına (QİƏT) çevrilmiş, onun nizamnaməsi imzalanmışdı. Yalta zirvə görüşündə 12 maddədən ibarət bəyannamə imzalandı. Bəyannamədə iştirakçı dövlətlər öz strateji mövqeyinə və nəhəng iqtisadi potensialına görə Qara dəniz regionunun XXI əsrdə istər dünya siyasətində, istərsə də qlobal iqtisadiyyatda rolunun artacağını bildirdilər (4, 255-258).

1999- cu il sentyabrın 10-11- də Ukraynanın Yalta şəhərində «Baltik-Qara dəniz əməkdaşlığı: XXI əsrdə ayrıcı xətləri olmayan inteqrasiyalı Avropaya doğru» forumu çərçivəsində iştirakçı ölkələrin dövlət və hökumət başçılarının sammiti və beynəlxalq elmi konfrans keçirildi. Prezident Heydər Əliyev beynəlxalq konfransda çıxış edərək bildirdi ki, XX yüzilliyin sonlarında yaranmış reallıqlar şəraitində biz yeni müstəqil dövlətlərdə demokratiyanın və qanunun aliliyinin bərqərar edilməsinə və inkişafına, insan hüquqlarının, sosial ədalətin təmin edilməsinə, bazar iqtisadiyyatının inkişafına və XXI əsrin yeni Avropası ilə bu dövlətlərin ahəngdar inteqrasiyasına hər cür kömək göstərməliyik: (7, 324-332) «Regionumuzda mövcud olan və fəaliyyət göstərən QİƏT, GUÖAM kimi təşkilatlar və forumlar Baltik-Qara dəniz məkanındakı Avropa strukturları ilə yaxınlaşmağa meyl edirlər. Bu proses, şübhəsiz ki, Avropada gələcək təhlükəsizlik arxitekturasının yaradılmasına qarşı faydalı iqtisadi əməkdaşlığa və inteqrasiyaya yönəldilmiş ümumavropa prosesində səylərimizin sıx birləşdirilməsinə kömək edəcək» (16). Zirvə görüşündə çıxış edənlər yeni, birləşmiş, Avropa naminə öz ölkələrinin ümumavropa inteqrasiya prosesində yaxından iştirak etmək əzmini, münaqişələrin həlli və qarşısının alınması, sülhün, təhlükəsizliyin və sabitliyin qorunub saxlanması üçün birgə səylərin zəruriliyini vurğuladılar (9). 1999- cu il noyabrın 17- də İstanbulda QİƏT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının beşinci zirvə görüşü keçirildi. Zirvə görüşündə çıxış edən Heydər Əliyev QİƏT-in fəaliyyətini canlandırmaq üçün hələ istifadə edilməmiş imkanların olduğunu söylədi: «Zənnimcə, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı regionda sülhün, təhlükəsizliyin və sabitliyin təmin edilməsi həm Azərbaycan üçün, həm də digər iştirakçı dövlətlər üçün ən vacib vəzifədir.....İştirakçı dövlətlərin mehriban qonşuluq münasibətləri əsasında regionda sülhü və təhlükəsizliyi təmin etmək məqsədilə biz hamımız qəti tədbirlər görməliyik. Bu isə, öz növbəsində, genişmiqyaslı iqtisadi əməkdaşlıq üçün böyük imkanlar açardı» (3). Rumıniya prezidenti Emil Konstantinesku ölkəsinin QİƏT üzvləri ilə əməkdaşlığını yüksək qiymətləndirdiyini söyləyərək ticarət əlaqələrinin əhəmiyyətini vurğuladı. Bu baxımdan dövlət başçısı azad ticarət zonası yaradılmasının vacib olduğunu bildirdi. Zirvə görüşünün iştirakçıları İstanbul bəyannaməsini qəbul etdilər. QİƏT üzvü olan

ölkələrin dövlət və hökumət başçıları İstanbul bəyannaməsində təşkilatın 1998-ci ildə qəbul olunmuş Yalta bəyannaməsinin müddəalarına sadiq qaldıqlarını təsdiqləyərək çoxtərəfli iqtisadi əməkdaşlıq vasitəsilə QİƏT regionunda sülh və təhlükəsizlik işinə töhfə vermək əzmində olduqlarını bir daha bəyan etdilər.

Azərbaycanla Rumıniyanın əməkdaşlıq etdiyi təşkilatlardan biri də Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisidir. Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisi (QİƏPM) 1993- cü il 16-17 iyunda bu təşkilatın iştirakçısı olan ölkələrin parlament üzvlərinin görüşündə yaradıldı (17, v. 116).

1995-ci il noyabrın 26-29-da Ankarada Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisi Bürosunun, Daimi Komitəsinin iclasları və Baş Məclisin VI plenar sessiyası keçirildi. Noyabrın 29- da sessiya iştirakçıları mədəniyyət, təhsil, sosial məsələləri, QİƏPM və Qara dəniz Universiteti arasında əməkdaşlıq cədvəli, Qara dəniz ölkələri paytaxtları başçıları və qubernatorlarının ikinci görüşü haqqında məlumatı, yeni ildə təşkilatın büdcəsi haqqında məsələləri müzakirə və qəbul etdilər (14, vv. 96-97).

1996- cı il aprelin 27- də Buxarestdə QİƏPM-ə üzv olan ölkələrin xarici işlər nazirlərinin 7-ci iclası keçirildi. İclasda qeyd olundu ki, QİƏT çərçivəsində daxili regional ticarət kooperasiyalarının inkişafı xarici ticarət rejiminin qaydaya salınması ilə paralel getməlidir (21, v.166). 1996- cı il iyunun 11-13- də Bakıda QİƏPM-in 7- ci ümumi sessiyası keçirildi. Bu, müstəqillik qazandıqdan sonra ölkəmizdə keçirilən ilk böyük siyasi tədbir idi (1, 72). Toplantıda Azərbaycan Respublikasının prezidenti H.Əliyev çıxış edərək, əməkdaşlığın daha da inkişaf etməsi üçün ölkələr arasında qarşılıqlı olaraq qanunların uyğunlaşdırılması və yüksək qanunverici əsasın yaradılmasının vacibliyini bildirdi (20, v. 99). Prezident Heydər Əliyev Qara dənizlə Xəzər dənizi arasında iqtisadi əməkdaşlığın inkişafının vacib olduğunu bildirdi (11,s.424-437). Rumıniyanın nümayəndə heyətinin rəhbəri Karoli Kerekeş qeyd etdi ki, üzv ölkələr regionda təhlükəsizlik və əməkdaşlıq prinsiplərinin möhkəmlənməsi üçün maksimum səy göstərirlər. K.Kerekeş bu forumun regionda xüsusi sektorun nümayəndələrinin əməkdaşlığı üçün təkan olacağını bildirdi.

Parlament Assambleyası quruma üzv ölkələr arasında mədəni əməkdaşlığın inkişafına da böyük diqqət yetirir. 1993- cü ildə Qara dəniz mədəniyyət konvensiyası imzalanmaqla Qara dəniz hövzəsində mədəni əməkdaşlığın təməli qoyulur (10). 1996- cı ilin dekabrında Tbilisidə QİƏPM-nin səkkizinci plenar iclası keçirildi. İclasda 1996- cı il dekabrın 11- də qərar qəbul edildi. Qərara görə birinci parlamentlərarası konfransda Qara dənizdə ətraf mühitin qorunması haqqında bəyanatın bəyənilməsi, AŞPA ilə əməkdaşlığı inkişaf etdirmək və digər məsələlər nəzərdə tutulurdu (18, v.72).

1998- ci il iyunun 23-25-də Buxarestdə QİƏPM-nin 11- ci plenar iclası keçirildi. İyunun 24-də Milli Məclisin spikeri Murtuz Ələsgərov iclas iştirakçılarına müraciət edərək Azərbaycanın birləşmiş Avrasiya enerji sisteminin işlənib hazırlanmasında Qara dəniz regionunda azad ticarət zonasının yaradılmasına böyük əhəmiyyət verdiyini bildirdi (19, vv. 37-39).

1999-cu il aprelin 7-də QİƏPM-nin Mədəniyyət, təhsil və sosial məsələlər üzrə komitənin 12-ci iclası öz işinə başladı. İclasda QİƏT-ə üzv ölkələrdə təqaüdçülərin sosial müdafiəsinin hüquqi əsasları, təşkilatın inkişafında kütləvi informasiya vasitələrinin rolu və s. məsələlər müzakirə edildi (8).

Azərbaycan Avropa Şurası çərçivəsində də Rumıniya ilə əməkdaşlıq edir. 1997-ci il oktyabrın 10-da Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının II zirvə görüşü keçirildi. Zirvə görüşündə prezident Heydər Əliyev bir sıra dövlət və hökumət başçıları, o cümlədən Rumıniya prezidenti ilə görüşdü. Dövlət başçıları Xəzərin Azərbaycan sektorundakı yataqlardan çıxarılacaq neftin ixracı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi apardılar. Söhbət zamanı iqtisadi əlaqələrlə bağlı digər məsələlər, o cümlədən Transqafqaz nəqliyyat dəhlizindən istifadənin perspektivlərinə də toxunuldu (5, 712-713). Prezident E.Konstantinesku Rumıniyanın bütün dövlətlərin, o cümlədən Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığını müdafiə etdiyini bildirdi (13, 309-310).

Beləliklə, 1992-ci ildə Qara dəniz İqtisadi Əməkdaşlığı yarandıqdan sonra Azərbaycan onun fəal üzvlərindən birinə çevrildi. 1992-1999-cü illərdə Azərbaycan bu təşkilatın zirvə görüşlərində iştirak edərək, xüsusilə iqtisadi sahədə Rumıniya ilə fəal əməkdaşlığa cəlb olundu. Azərbaycan Avropa Şurası və BMT çərçivəsində də Rumıniya ilə əməkdaşlıq edir. Rumıniya Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən dövlət kimi bu təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qərarları müdafiə edir.

## ƏDƏBIYYAT


1. Axundov N., Qasımov M. Azərbaycan və beynəlxalq parlament təşkilatları. Bakı: Mütərcim, 1996, 88 s.
2. Aslanov A. Azərbaycan Şərqi Avropaya «qapı» açır. «Azərbaycan» qəz., Bakı, 1995, 5 iyul.
3. Aslanov R., Rzayev T. Azərbaycan prezidenti Heydər Əliyevin İstanbul görüşləri. «Azərbaycan» qəz., Bakı, 1999, 19 noyabr № 264.
4. Azərbaycan beynəlxalq aləmdə: 8 cilddə, IIc., Bakı: Göytürk, 1997, 761 s.
5. Azərbaycan beynəlxalq aləmdə: 8 cilddə, III c., Bakı: Göytürk, 1998, 776 s.
6. Azərbaycan beynəlxalq aləmdə: 8 cilddə, IVc., Bakı: Göytürk, 1999, 520 s.
7. Azərbaycan beynəlxalq aləmdə: 8 cilddə,Vc., Bakı: Göytürk, 1999, 476 s.
8. Bakıda Qara dəniz İqtisadi əməkdaşlığı Parlament Məclisi Komitəsinin 12- ci iclası keçirilmişdir. «Azərbaycan» qəz., Bakı, 1999, 8 aprel, № 78 (2190).
9. Baltik-Qara dəniz əməkdaşlığı inteqrasiyalı Avropaya doğru körpüdür. «Respublika» qəz., Bakı, 1999, 14 sentyabr.
10. Bu gün Bakıda Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Assambleyasının sessiyası öz işinə başlayır. «Azərbaycan» qəz., Bakı, 2001, 19 iyun.
11. Əliyev H. Müstəqilliyimiz əbədidir: 19 cilddə, VI c., Bakı: Azərnəşr, 1998, 512 s.
12. Əliyev H. Müstəqilliyimiz əbədidir: 19 cilddə, VIIc., Bakı: Azərnəşr, 1998, 520 s.
13. Əliyev H. Müstəqilliyimiz əbədidir: 19 cilddə, XIIc., Bakı: Azərnəşr, 2004, 432 s.
14. Hesabat // Azərbaycan Respublikası Milli Məclis Katibliyi, Beynəlxalq əlaqələr şöbəsi, Qara dəniz iqtisadi Əməkdaşlığı Parlament Məclisinin işinə dair sənədlər. 1995, Azərbaycan Respublikası Milli Məclis Arxivi: f. 2941.
15. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 752 s.
16. Yaltada «Baltik-Qara dəniz əməkdaşlığı: XXI əsr Avropa inteqrasiyasına doğru ayırıcı xətlərsiz» mövzusunda beynəlxalq konfransda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin nitqi. «Respublika» qəz., Bakı, 1999, 11 sentyabr, № 185 (649).
17. Kara deniz ekonomik işbirliyi parlamenter asamblesinin kurulmasına ilişkin deklarasyon // 1993-cü il fevralın 17- dən martın 2-dək Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanun və qərarlar. Azərbaycan Respublikası Milli Məclis Arxivi: f.2942, siy.1, iş 145.

18. Генеральная Ассамблея. Восьмая пленарная сессия. Решение 5 / 1996. О последующих мероприятиях в свете решений Первой межпарламентской конференции по защите окружающей среды Черного моря // Azərbaycan Respublikası Milli Məclis. Aparatı, beynəlxalq münasibətlər şöbəsi, QİƏPM-nin işinə dair sənədlər, 1996, Azərbaycan Respublikası Milli Məclis Arxivi: f.2941.
19. Обращение председателя Милли Меджлиса Азербайджанской Республики господина Муртуза Алескерова к участникам одиннадцатого пленарного заседания Генеральной Ассамблеи ПАЧЕС. Бухарест, 24 июня, 1998 года // Azərbaycan Respublikası Milli Məclis Aparatı, beynəlxalq münasibətlər şöbəsi, QİƏPM-nin işinə dair sənədlər. 11-ci plenar iclas 1998. Azərbaycan Respublikas Milli Məclis Arxivi: f.2941.
20. Речь Президента Азербайджанской Республики, Его Превосходительства г-на Гейдара Алиева на церемонии открытия Седьмой Сессии Генеральной Ассамблеи ПАЧЕС // Milli Məclis Katibliyi, Beynəlxalq əlaqələr şöbəsi, Qara dəniz iqtisadi Əməkdaşlığı Parlament Məclisinin işinə dair sənədlər. 1996. Azərbaycan Respublikası Milli Məclis Arxivi: f.2941.
21. Седьмое заседание министров иностранных дел стран-участниц ЧЭС // Az. Resp. Milli Məclis Katibliyi, Beynəlxalq əlaqələr şöbəsi, Qara dəniz iqtisadi Əməkdaşlığı Parlament Məclisinin işinə dair sənədlər. 1996. Azərbaycan Respublikası Milli Məclis Arxivi: f.2941.

## РУМЫНО-АЗЕРБАЙДЖАНСКОЕ СОТРУДНИЧЕСТВО В СИСТЕМЕ МНОГОСТОРОННИХ ОТНОШЕНИЙ (1992-1999)

**С.А.ИМАНОВА**

### РЕЗЮМЕ

Многостороннее сотрудничество между Азербайджаном и Румынией стало возможным после того, как Азербайджан приобрел свою независимость. В 1992 году оба государства стали членами Организации Черноморского Экономического Сотрудничества. Участие в ОЧЭС позволило Азербайджану присоединиться к межрегиональной интеграции. Азербайджан также является членом Парламентской Ассамблеи Черноморского Экономического Сотрудничества, где он представлен в различных комитетах. Румыния сотрудничает с Азербайджаном в рамках таких организаций как Совет Европы и ООН. Румыния поддерживает территориальную целостность Азербайджана, в рамках этих организаций.

## ROMANIAN-AZERBAIJAN COOPERATION IN THE SYSTEM OF MULTILATERAL RELATIONS (1992-1999)

**S.A.IMANOVA**

### SUMMARY

Azerbaijan after gaining its independence cooperates with Romania on the multilateral sphere. In 1992 Romania and Azerbaijan became the members of BSEC. Participation in BSEC has allowed Azerbaijan to join interregional integration. The relations with the Parliament Assembly of this organization were established. Azerbaijan was represented in different committees of the assembly. Azerbaijan and Romania cooperate in the frame of UNO, COE. Romania supports the territorial integrity of Azerbaijan within these organizations.